AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**Təsdiq edirəm:**

**"İqtisadiyyat" kafedrasının müdiri:**

**i.ü.f.d.,dos. S.İ. Hümbətova**

## "REGİONAL İQTİSADİYYAT" fənni üzrə
## FƏNNİ ÜZRƏ İŞÇİ TƏDRİS PROQRAMI
**(Sillabus)**

| Fənnin adı | REGİONAL IQTISADIYYAT | | | | | |
|---|---|---|---|---|---|---|
| Fakültə | İqtisadiyyat və idarəetmə | | | | | |
| Kafedra | İqtisadiyyat | | | | | |
| Fənnin kodu | 00724 | | | | | |
| Fənnin növü | Seçmə | | | | | |
| Tədris dili | Azərbaycan | | | | | |
| Tədrisin forması, qrup, tədris yükü | Əyani<br>**qrup** | Semestr<br>**Yaz** | Tədris yükü:<br>**60 saat** | Mühazirə<br>**30 saat** | Məşğələ<br>**30 saat** | Kredit<br>**4** |
| Tələbələr üçün qəbul vaxtları: | *I gün 14:00-dan 16:00-dək* | | | | | |
| Müəllimlə əlaqə: İş telefonu, e-mail ünvanı | **012 564 37 06** | | | | | |

## II. Fənnin təsviri

Bu fənn regionların sosial-iqtisadi inkişafının məqsəd və vəzifələri, fənnin predmeti, ümumiyyətlə, iqtisadi rayonlaşmanın əsasları, prinsip və amilləri, rayonlaşmanın xarici təcrübəsi və Azərbaycanda rayonlaşmanın inkişafı məsələlərini, regionların sosial-iqtisadi inkişafının tənzimlənməsinin təşkili və elmi əsasları, metodları, müxtəlif növ və tiplərdə regionların xüsusiyyətlərinin nəzərə alınmasının zəruriliyi kimi məsələləri əhatə edir. Azərbaycanda iqtisadi rayonlaşmanını inkişafı və Dövlət proqramının tələblərinə uyğun rayonlaşmanın inkişaf istiqamətləri geniş şərh olunur. Bunlarla yanaşı müasir dövrün daxili və xarici siyasətinin tələblərinə uyğun dövlətin regional siyasətinin məqsəd və vəzifələri, onun işlənib hazırlanması və həyata keçirilməsi mexanizmi, regional inkişafın tənzimlənməsinin hüquqi əsasları, bazar iqtisadiyyatının tələbi kimi əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin edən iqtisadiyyatın kompleks inkişafı, onun göstəriciləri və planlaşdırılması qaydası, regionların sosial-iqtisadi inkişafında AİZ-nın sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin və sosial infrastrukturun strateji planlaşdırılmasının rolu kimi problemlər araşdırılır, regionların maliyyəsi məsələləri araşdırılır və müasir dövrün ən mühüm istiqaməti kimi regionlarda ekoloji problemlərin tənzimlənməsi zəruriyyəti kimi mövzuların öyrənilməsinə xüsusi fikir verilir.

Həmçinin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə strateji yol xəritəsi»ndə göstərilən istiqamətlər üzrə təhlilin aparılmasının araşdırılması, proqnozlaşdırılması və strateji seçiminin mövcud vəziyyətini regional kontekst baxımından uzunmüddətli baxışların təhlilini aparmaq.

## III. Fənnin məqsədi və vəzifələri

Fənnin tədrisinin məqsədi:
Müasir dövrdə Azərbaycanda ön plana çəkilmiş öyrənilməsi və tədqiqi vacib və zəruri olan regionların hər birinin keçmiş və indiki iqtisadi durumunu, təbii ehtiyatlarını, onlardan istifadə təcrübəsini və perspektiv istiqamətlərini, regionların sosial-iqtisadi inkişafının tənzimlənməsinin hüquqi bazasını və onun təkmilləşdirilməsi istiqamətlərini öyrənməkdə tələbələrdə maraq artırmaq, ölkədə əhalinin milli tərkibi və adət-ənənələri, vərdişləri, ərazilərin təbii-coğrafi xüsusiyyətləri, təbii sərvətləri (yeraltı və yerüstü) iqtisadi-sosial baxımdan tələbələrə çatdırmaqla onların gələcəyə baxışlarını artırmaq.
Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- tələbələrə regional iqtisadiyyatın meyarlarının məqsədlərini, o cümlədən yeni biznes növlərini, sənaye sahələrinin, xidmət sferalarının, region əhalisinin məşğulluq səviyyəsinin öyrənilməsi regionlarda müxtəlif sahələrlə xarici investisiyaların cəlb edilməsi, beynəlxalq əlaqələrin və beynəlxalq ticarətin regionlarda müstəqil və səmərəli istiqamətlərinin düzgün çatdırılması;
- tələbələrə regional-iqtisadi tədqiqatların dərk edilməsi, yeni istehsal müəssisələrinin yaradılması, regionlarda sahibkarlıq fəaliyyətinin cəlb edilməsi, investisiya fəaliyyətinin tənzimlənməsi, sosial və istehsal infrastruktur sahələrinin araşdırılması haqqında nəzəri baxımdan mülahizə yürütmək kimi qabiliyyətlər əldə etmələrinə dəstək olmaq;
- tələbələrə müxtəlif bazar tiplərinə məxsus Azərbaycan Respublikası və onun regionlarında dövlətin tənzimləmə siyasətinin işlənilməsi sahəsində zəruri bacarıq və qabiliyyətlərin aşılanması;
- ümumilikdə, dövlətin regional siyasətinin hər bir sahəsi üzrə araşdırmaların tətbiqi, o cümlədən regionlarda maliyyələşmə, büdcə-vergi və pul-kredit siyasətinin tətbiqi, sosial sahələrdə və məşğulluq sferasında tələbələrin elmi yanaşmaları və modelləri tətbiq etmək.

## IV. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili,

sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

**V. Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr **bilməlidirlər:**

- Regional iqtisadiyyat fənninin nəzəri əsaslarını;
- Azərbaycan Respublikasının regional inkişafının yeri və rolunu;
- Azərbaycan Respublikasının qəbul edib və təsdiqlədiyi qanunlar, proqramlar və regional-hüquqi tənzimlənmənin normativ hüquqi aktlar barəsində ətraflı məlumatları.
- Regional iqtisadiyyat istiqamətində müqayisəli sosial-demoqrafik təhlili
- Regional iqtisadiyyat istiqamətində müqayisəli iqtisadi təhlili

**Bacarmalıdırlar**:

- Regional inkişafının tənzimlənməsi haqqında sərbəst mülahizələr yürütmək;
- Ayrı-ayrı sahələr üzrə (hüquq, sosial, iqtisadi, siyasi, demoqrafik, ekoloji, maliyyə və s.) təhlil etmək;
- Regional inkişafının tənzimlənməsi, onların tətbiqi və yerinə yetirilməməsi zamanı ayrı-ayrı sahələrin, regional istiqamətlərdə davamlı olaraq modellərin qurulması və nəticələri haqqında sərbəst şəkildə məlumat vermək;
- Müxtəlif sahələrdə regionların istiqamətləri üzrə həm beynəlxalq istiqamətdə, həm də regional təhlükəsizliklərin təminatı istiqamətində müxtəlif inkişaf variantlarını proqnozlaşdırmağı.

**VI. Prerekvizitlər**

*Yoxdur*

**VII. Fənnin mühazirə mövzuları**

Burada fənn üzrə tələbələrə oxunacaq mühazirə mövzularının adları təqdim olunur:

1.Regional iqtisadiyyatın nəzəri əsasları
2.Regional inkişaf və regional bərabərsizlik
3.Azərbaycan regionlarının resurs potensialı
4.Azərbaycan regionlarının müqayisəli iqtisadi təhlili (istehsal olunan məhsul, onun sahə quruluşu...)
5.Azərbaycan regionlarının müqayisəli sosial-demoqrafik təhlili (əhali, məşğulluq, işsizlik, əhali gəlirləri, əmək haqqı)
6.Azərbaycan regionlarının maliyyə təminatı
7.Azərbaycan regionlarında sahibkarlığın inkişafı
8.Azərbaycan regionlarının infrasrtukturu
9.Regional təhlükəsizlik problemləri
10.Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı və ölkə iqtisadiyyatına inteqrasiyası
11.Azad iqtisadi zonalar (AİZ)
12.AR-nın sosial-iqtisadi inkişaf proqramları

13.AR-nın regionlarının iqtisadi və hüquqi tənzimlənməsi
14.Regional iqtisadiyyatda "yaşıl iqtisadiyyat
15.Xarici ölkələrin regional iqtisadiyyatı

## VIII. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az) yerləşdirilir.

## IX. Əsas dərslik və ədəbiyyat


1. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, Qanun 1995-2018
2. "Azərbaycan 2020: gələcəyə baxiş" inkişaf konsepsiyasi – Bakı 2012
3. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"- Bakı 02 fevral 2021,
4. Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası, 22 iyul 2022
5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-2018-ci illər ərzində hesabatları
6. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev Strategiyası. UNEC.Bakı 2019
7. «Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə Strateji yol xəritəsi» İlham Əliyevin 06 dekabr 2016-cı il tarixli sərəncamı, Bakı 2016.
8. «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq haqqında» qanunlar, sənədlər, analitik materiallar. Bakı 2000
9. Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2000-2005-ci illər) Bakı 2001
10. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramı» haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı 2004-ci il
11. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramı» (2004-2008-ci illər) haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
12. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramı» (2009-2013-cü illər) haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı 2009
13. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramı» (2014-2018-ci illər) haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı 2014
14. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramı» (2019-2023-ci illər) haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı 2019
15. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikasi Prezidentinin fərmanı Bakı şəhəri, 7 iyul 2021-ci il
16. 2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı
17. 2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı
18. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı
19. 2008—2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı
20. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramı» (2019-2023-cü illər) haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı 2019
21. Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı «ADİU» nəşriyyatı, 2011

22. Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Metodik göstəriş. Bakı «ADİU» nəşriyyatı, 2013
23. Əli Nuriyev "Regional siyasət və idarəetmə" Bakı «Елм» 2004
24. Əli Nuriyev "Davamlı və tarazlı regional inkişaf" Bakı, 2017
25. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, H.B.Allahverdiyev, K.S.Qafarov, Əhmədov Ə.M Bakı 2012
26. Prof.M.A.Əhmədov., dos.A.C.Hüseyn. «Dövlətin iqtisadi siyasəti» Bakı 2011
27. M.A.Əhmədov. Qloballaşma və milli iqtisadiyyatın formalaşması,
29. Prof.M.A.Əhmədov., dos.A.C.Hüseyn. «İqtisadiyyatın tənzimlənməsinin əsasları» Bakı 2011 Blackwell: Malden MA. 2000.
28. Harvey Armstrong and Jim Taylor. Regional Economics and Policy, 3rd edition.
30. Г.Поляка «Региональная политика» М.ЮНИТИ-ДАНА,2013
31. ФетисовГ.Г.,В.П.Орешин «Региональная экономика и управление». ИНФРА-М, 2012

*Hər bir mövzu üzrə əlavə ədəbiyyat mühazirə zamanı təqdim edilə bilər.*

## X. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Regional iqtisadiyyatın nəzəri əsasları | Regional iqtisadiyyat iqtisadi fəaliyyətin məkan üzrə təşkili və regionların sosial-iqtisadi inkişaf qanunauyğunluqlarını öyrənən elmi sahədir. Bu elm region anlayışını, regionların təsnifatını və onların istehsal, resurs və inkişaf potensialını araşdırır. Regional inkişaf nəzəriyyələri istehsalın yerləşməsi, mərkəz–periferiya münasibətləri və regionlararası bərabərsizliyin səbəblərini izah edir. Regional iqtisadi siyasət regionlar arasında fərqlərin azaldılmasına, dayanıqlı və balanslı inkişafın təmin olunmasına yönəlir. | Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı «ADİU» nəşriyyatı, 2011 *Г.Поляка«Региональная политика» М.ЮНИТИ-ДАНА,2013* |
| 2 | Regional inkişaf və regional bərabərsizlik | Regional inkişaf regionların iqtisadi, sosial və infrastruktur baxımından davamlı irəliləyişini ifadə edir. Regional bərabərsizlik isə regionlar arasında gəlir səviyyəsi, məşğulluq, istehsal potensialı və həyat şəraitində yaranan fərqlərlə xarakterizə olunur. Bu bərabərsizliklər təbii resursların qeyri-bərabər paylanması, istehsalın mərkəzləşməsi, investisiya axınları və tarixi inkişaf xüsusiyyətləri ilə əlaqədardır. Dövlətin regional siyasəti regional fərqlərin azaldılmasına və balanslı regional inkişafa yönəlir. | Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı «ADİU» nəşriyyatı, 2011 Harvey Armstrong and Jim Taylor. Regional Economics and Policy, 3rd edition. Blackwell: Malden MA. 2000. |
| 3 | Azərbaycan regionlarının resurs potensialı | Azərbaycan regionlarının resurs potensialı təbii, əmək, istehsal və infrastruktur resurslarının məcmusunu əhatə edir. Regionlar təbii ehtiyatlar, kənd təsərrüfatı imkanları, sənaye potensialı və nəqliyyat-coğrafi mövqeyinə görə fərqlənir. Bu resurslardan səmərəli istifadə regionların sosial-iqtisadi inkişafını, məşğulluğun artmasını və regional tarazlığın təmin olunmasını şərtləndirir. Dövlət proqramları | Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı «ADİU» nəşriyyatı, 2011 Azəraycan Respulikası Statistika Komitəsi" 2023-24 |

| | | | |
|---|---|---|---|
| | | regionların resurs potensialının reallaşdırılmasına və dayanıqlı inkişafına yönəlmişdir. | |
| **4** | Azərbaycan regionlarının müqayisəli iqtisadi təhlili | Azərbaycan regionlarının müqayisəli iqtisadi təhlili regionlar arasında iqtisadi inkişaf səviyyəsinin, istehsal strukturlarının, resurs təminatının və sosial göstəricilərin fərqlərinin araşdırılmasını əhatə edir. Bu təhlil regional ümumi məhsul, məşğulluq, investisiya həcmi və infrastruktur inkişafı kimi göstəricilər əsasında aparılır. Müqayisəli yanaşma regionların üstün və zəif cəhətlərini müəyyənləşdirməyə və səmərəli regional siyasətin formalaşdırılmasına imkan yaradır. | “Azərbaycan Respulikası Statistika Komitəsi” 2023-24<br><br>Əli Nuriyev “Davamlı və tarazlı regional inkişaf” Bakı, 2017 |
| **5** | Azərbaycan regionlarının müqayisəli sosial-demoqrafik təhlili | Azərbaycan regionlarının müqayisəli sosial-demoqrafik təhlili əhalinin sayı, artım tempi, yaş və cins strukturu, məşğulluq səviyyəsi, miqrasiya prosesləri və sosial təminat göstəricilərinin regionlar üzrə fərqlərinin öyrənilməsini əhatə edir. Bu təhlil regionlarda həyat səviyyəsinin, sosial inkişafın və demoqrafik tarazlığın qiymətləndirilməsinə, eləcə də məqsədyönlü sosial və regional siyasətin formalaşdırılmasına xidmət edir. | “Azərbaycan Statistika Komitəsi” 2023-24<br><br>Əli Nuriyev “Davamlı və tarazlı regional inkişaf” Bakı, 2017 |
| **6** | Azərbaycan regionlarının maliyyə təminatı | Azərbaycan regionlarının maliyyə təminatı yerli büdcə gəlirləri, dövlət transfertləri, investisiyalar və maliyyə institutlarının fəaliyyəti hesabına formalaşır. Maliyyə resurslarının bölgüsü regionların sosial-iqtisadi inkişaf səviyyəsinə və ehtiyaclarına uyğun həyata keçirilir. Effektiv maliyyə təminatı regionlarda infrastrukturun inkişafına, məşğulluğun artırılmasına və regional bərabərsizliyin azaldılmasına xidmət edir. | Əli Nuriyev “Davamlı və tarazlı regional inkişaf” Bakı, 2017<br>«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramı» (2014-2018-ci illər) haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı 2014<br>(Bütün proqramlar daxil olmaqla) |
| **7** | Azərbaycan regionlarında sahibkarlığın inkişafı | Azərbaycan regionlarında sahibkarlığın inkişafı iqtisadi fəallığın artırılması, məşğulluğun genişləndirilməsi və yerli resurslardan səmərəli istifadəyə yönəlmişdir. Dövlət dəstəyi, güzəştli kreditlər, vergi təşviqləri və infrastruktur layihələri regionlarda kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırır. Sahibkarlığın genişlənməsi regionların sosial-iqtisadi inkişafına və regional tarazlığın möhkəmlənməsinə xidmət edir. | Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı «ADİU» nəşriyyatı, 2011<br>Azərbaycan Respublikasının iqtisadi inkişafını tənzimləyən qanunlar (1991-2018-ci illər) |

| | | | |
|---|---|---|---|
| **8** | Azərbaycan regionlarının infrasrtukturu | Azərbaycan regionlarının infrastrukturu nəqliyyat, rabitə, enerji, su təchizatı və sosial obyektlər sistemini əhatə edir. İnfrastrukturun inkişafı regionlararası əlaqələrin güclənməsinə, istehsal və xidmət sahələrinin genişlənməsinə şərait yaradır. Dövlət proqramları regionlarda infrastrukturun yenilənməsinə və sosial-iqtisadi inkişafın sürətləndirilməsinə yönəlmişdir. | Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı «ADİU» nəşriyyatı, 2011 Əli Nuriyev "Regional siyasət və idarəetmə" Bakı «Елм» 2004 Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev Strategiyası. UNEC.Bakı 2019 |
| **9** | Regional təhlükəsizlik problemləri | Regional təhlükəsizlik problemləri regionlarda siyasi sabitlik, iqtisadi davamlılıq, sosial təhlükəsizlik və ekoloji risklərlə bağlı təhdidləri əhatə edir. Bu problemlərə münaqişələr, terrorizm, qeyri-qanuni miqrasiya, iqtisadi bərabərsizlik və təbii fəlakətlər daxildir. Regional təhlükəsizliyin təmin olunması dövlətlərarası əməkdaşlıq, effektiv təhlükəsizlik siyasəti və dayanıqlı regional inkişaf yolu ilə həyata keçirilir. | Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı «ADİU» nəşriyyatı, 2011 Əli Nuriyev "Regional siyasət və idarəetmə" Bakı «Елм» 2004 Əli Nuriyev "Davamlı və tarazlı regional inkişaf" Bakı, 2017 |
| **10** | Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı və ölkə iqtisadiyyatına inteqrasiyası | Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı regionların bərpa olunması, infrastrukturun yenilənməsi, sənaye və kənd təsərrüfatı potensialının artırılması ilə əlaqədardır. Bu rayonların ölkə iqtisadiyyatına inteqrasiyası investisiyalar, nəqliyyat-kommunikasiya xətləri, iş yerlərinin yaradılması və regional ticarət əlaqələrinin gücləndirilməsi yolu ilə həyata keçirilir. Belə inteqrasiya milli iqtisadiyyatın dayanıqlı inkişafını və regional tarazlığın möhkəmlənməsini təmin edir. | Iqtisadi zonalar_CAP.cdr Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikasi Prezidentinin fərmanı Bakı şəhəri, 7 iyul 2021-ci il |
| **11** | Azad iqtisadi zonalar (AİZ) | Azad iqtisadi zonalar (AİZ) xüsusi iqtisadi rejimə malik ərazilərdir ki, burada investisiya, ixrac-idxal və sahibkarlıq fəaliyyətləri müəyyən vergi və gömrük güzəştləri ilə təşviq olunur. AİZ-lərin məqsədi xarici investisiyaların cəlb edilməsi, sənaye və xidmət sahələrinin inkişafı, məşğulluğun artırılması və regional iqtisadiyyatın stimullaşdırılmasıdır. | Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı «ADİU» nəşriyyatı, 2011 Azad İqtisadi Zona Və Azərbaycan Təcrübəsi |

| | | | |
|---|---|---|---|
| **12** | AR-nın sosial-iqtisadi inkişaf proqramları | Azərbaycanın sosial-iqtisadi inkişaf proqramları ölkənin iqtisadi potensialının artırılması, regionların bərabər inkişafının təmin olunması, məşğulluğun yüksəldilməsi və sosial rifahın yaxşılaşdırılmasına yönəlmiş dövlət strategiyalarıdır. Proqramlar investisiyaların təşviqi, infrastrukturun inkişafı, sahibkarlığın dəstəklənməsi və humanitar layihələrin həyata keçirilməsini əhatə edir. | Əli Nuriyev "Davamlı və tarazlı regional inkişaf" Bakı, 2017 «Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə Strateji yol xəritəsi» İlham Əliyevin 06 dekabr 2016-cı il tarixli sərəncamı, Bakı 2016 «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramı» (2019-2023-ci illər) haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı 2014 |

| | | | |
|---|---|---|---|
| **13** | AR-nın regionlarının iqtisadi və hüquqi tənzimlənməsi | Azərbaycanın regionlarının iqtisadi və hüquqi tənzimlənməsi dövlətin regionlararası bərabərsizliyin azaldılması, investisiya və resursların səmərəli bölgüsü, sosial-iqtisadi inkişafın təşviqi üçün həyata keçirdiyi tədbirlərdən ibarətdir. Bu tənzimləmə qanunvericilik bazası, dövlət proqramları, investisiya təşviqləri və regional inkişaf strategiyaları vasitəsilə təmin olunur. | Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı «ADİU» nəşriyyatı, 2011<br>"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" |
| **14** | Regional iqtisadiyyatda "yaşıl iqtisadiyyat | Regional iqtisadiyyatda yaşıl iqtisadiyyat təbii resurslardan səmərəli istifadə, ekoloji davamlılıq və iqtisadi inkişafın uyğunlaşdırılmasını nəzərdə tutur. Məqsəd enerji effektivliyi, bərpa olunan enerji mənbələri, tullantıların azaldılması və ətraf mühitin qorunması ilə regionların dayanıqlı inkişafını təmin etməkdir. | Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı «ADİU» nəşriyyatı, 2011<br>https://president.az/articles/50474 |
| **15** | Xarici ölkələrin regional iqtisadiyyatı | Xarici ölkələrin regional iqtisadiyyatı həmin ölkələrin regionlararası iqtisadi inkişaf fərqlərini, resurs paylanmasını və regional siyasət vasitələrini öyrənir. Bu sahə iqtisadi mərkəz–periferiya münasibətləri, investisiya axınları, infrastruktur və sosial-iqtisadi proqramlar əsasında regionların inkişafını təhlil etməyə imkan verir. | Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı «ADİU» nəşriyyatı, 2011<br>Harvey Armstrong and Jim Taylor. Regional Economics and Policy, 3rd edition. Blackwell: Malden MA. 2000. |

## XI. Seminar-məşğələlər

Seminar dərsləri tələbələrin təqdimatı, komanda çalışması, əlavə fərdi tapşırıqlar və test tapşırıqlarının yerinə yetirilməsi ilə keçirilir. Tələbələr həmçinin əlavə mövzular üzərində çalışaraq apardıqları elmi tədqiqatlarını da seminar dərsində təqdim edə bilərlər. Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, əsaslandırmağı bacarmalıdır. Tələbə bunun üçün:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə çıxış hazırlamaqla bərabər, praktik bacarıqlara yiyələnməlidir.

## DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

**FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ** ***(Əyani təhsilalma forması üzrə)***

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

**B = (((b1+b2+b3+...+bn)/s)*m)/10**

**Burada,**

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən "0" bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

***QEYD:*** İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq